## 5 oktyabr Beynəlxalq Müəllimlər günüdür

# Təhsilimizin fədailərindən biri



Məhər müəllimin anadan olduğu vaxtdan 85, ilk dəfə müəllim kimi sinfə girdiyi gündən isə 62 il keçib. Bu altmış ildə neçəneçə şagirdi həyata pərvazlandırıb Məhər müəllim. O, dünyaya Füzuli rayonunun Gecəgözlü kəndində 1931-ci ilin sentyabr ayında göz açıb. 1954-cü ildə Azərbaycan Dövlət Xarici Dillər İnstitutunun ingilis dili fakültəsini bitirərək doğma rayonuna gənc mütəxəssis kimi təyinat alıb.

Təhsil şöbəsinin məsləhəti ilə Məhər Məhərov rayonun Yuxarı Seyidəhmədli kənd orta məktəbinə müəllim təyin edilib. 3 il həmin kənddə işlədikdən sonra Gecəgözlü kənd 7 illik məktəbinə dəyişdirilib və 9 il də burada çalışıb.

1967-ci ilin əvvəlində tanınmış pedaqoq, RTŞ müdiri Hüseyn Hüseynovun dəvəti ilə rayon təhsil şöbəsində inspektor, 1998-ci ildən 2011-ci ilə kimi isə müdir müavini vəzifələrini daşımışdır. 2011-ci ildə - 80 yaşında öz arzusu ilə tutduğu vəzifədən getmişdir.

Məhər müəllimin uşaqlıq illəri repressiya dövrünə düşmüş, bu qanlı - qadalı illər onların ailəsindən də yan keçməmişdir. Belə ki, 8 yaşında ikən valideynləri ilə birlikdə Qazaxıstana sürgün edilmiş, ağır günlər yaşamışdır. Haqsızlığa 1956-cı ildə son qoyulmuş, bütün ailə üzvlərinə bəraət verilmişdir.

Məhər müəllim hər sözə cavab verməyən, ağır təbiətli, səviyyəsini gözləyən bir ağsaqqal - pedaqoq kimi tanınmışdır. Ona hər hansı bir iş üçün müraciət edənlərə imkan daxilində kömək əlini uzatmağa çalışar və öz xeyirxahlığı ilə ətrafdakılardan seçilərdi.

Şöbə üzrə sənədlərin hazırlanması və düzgün tərtib olunaraq Təhsil Nazirliyinə göndərilməsində onun xidmətləri böyükdür. Təhsil şöbəsinə daxil olan maliyyə sənədlərinin hazırlanaraq məktəblərə çatdırılması, gənc kadrların düzgün yerləşdirilməsi, həvəsləndirilməsi və onlara pedaqoji baxımdan konkret yollar göstərilməsində təcrübəli ağsaqqal - pedaqoq kimi nümunə göstərirdi.

Mütaliə etməyi çox sevən bu təhsil fədaisi normativ təhsil sənədlərinin bilicisi idi. Hər hansı bir müəllim, məktəb və ya elə götürək təhsil şöbəsinin müdiri, maliyyə məsələlərində, dərs bölgüsündə və digər məsələlərdə qarşıya çıxan problemlərin doğru həllini tapmaq üçün Məhər müəllimin məsləhətinə ehtiyac duyardılar. Mübahisəli məsələlər ortaya çıxanda, həmin söhbətin düzgün cavabı məhz Məhər müəllimdən alınırdı.

Onu yaşadan və gələcəyə bağlayan güclü inamı və insanların ona qarşı olan sonsuz sevgisidir.

Qocaman pedaqoq bu gün təqaüddə olsa da öz xeyirxah məsləhətlərini ona müraciət edənlərdən əsirgəmir.

Yadımdadır, o, təhsil şöbəsində metodist işləyirdi. Təhsil şöbəsinin müdir müavini ştatı boş idi. Həmin vəzifəyə çoxlu namizəd meydana çıxmışdı. Ancaq rayon təhsil şöbəsinin müdiri həmin vəzifəyə məhz Məhər müəllimi layiq bilmişdi.

İnsan onda özünü xoşbəxt hiss edir ki, işləməyəndə də onu yaddan çıxarmırlar. Qədirbilən müəllim və məktəb rəhbərlərinin əksəriyyəti Məhər müəllimlə tez-tez zəngləşir və hal-əhval tuturlar. Bu günlərdə isə onu arayan, təbrik edən yəqin ki, daha çoxdur. Axı qocaman müəllimin 85 yaşı tamam olub. 85 yaşın mübarək Məhər müəllim!

**Ehtiram SƏFƏROV,**
*Füzuli rayon 56 nömrəli tam orta məktəbin direktoru, filologiya üzrə fəlsəfə doktoru*